# Böyük qayıdışa həsr olunmuş fotosərgiyə 600 nəfərdən çox ziyarətçi baxıb

**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi (QMKİDK) Gülüstan sarayında Böyük qayıdışa həsr olunmuş fotosərgi təşkil edib.**

Dövlət komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sərgidə, Böyük Qayıdışa dair I Dövlət Proqramının Tədbirlər Planına əsasən, məcburi köçkünlərin yeni salınmış yaşayış məntəqələrinə geri qayıdışı üçün aparılan məlumatlandırma, təbliğat-izahat və təşviqat işləri çərçivəsində işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı ölkəmizin tanınmış foto ustalarının çəkdikləri şəkillər nümayiş olunub.

Fotoşəkillər Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Qarabağda və Şərqi Zəngəzurda həyata keçirilən bərpa-quruculuq işlərini, keçmiş məcburi köçkünlərin həmin ərazilərdə dayanıqlı məskunlaşması və iqtisadi fəaliyyətə inteqrasiyası üçün yaradılan şəraiti özündə əks etdirir. Həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu kateqoriyadan olan şəxslərə göstərdiyi diqqət və qayğı, Böyük qayıdışın ilkin nəticələri, dövlətimizin başçısının işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən tədbirlərdə iştirakı fotolorda işıqlandırılıb.

Sərgiyə 600 nəfərdən çox ziyarətçi tamaşa edib.

Azərbaycan.- 2024.- 6 iyun, № 118.- S.12.